

## BƏXTİYAR KAVANLI

### *"Sevdirə bilmədim özümü sənə"*

Çox gəzdim, dolandım dörd tərəfində,
Söyləyə bilmədim eşqimi sənə.
Qərq etdim özümü min bir əzaba,
Göstərə bilmədim əzmimi sənə.

Gəzdim fəsil-fəsil eldə, oymaqda,
Hər yerdə xəyalım qaldı yanında.
Dolandım başına pərvanə kimi,
İstədə bilmədim qəlbimi sənə.

Köksümə bağladım məhəbbətimi,
Gəzdim xəyalımda səntək mələyi.
Bülbültək car çəkdim, könül nəğməmi,
Yetirə bilmədim sevgimi sənə.

Məcnunun, Kərəmin dərdinə düşdüm,
Hicranın, fərağın odundan keçdim,
Ömrümün hamısın sənə xərclədim
Sevdirə bilədim özümü sənə.

***16.06.2021***

### *Dünya*

Birinə sərin yaylaqdı,
Birinə qar-qışdı dünya.
Biri üçün toy- büsatdı,
Birinə qəm, yasdı dünya.

Birinə "gəl-gəl" söyləyir.
Birinə də "get-get" deyir,
Mərd gözünə kül üfürür,
Namərdlə qardaşdı dünya.

Çox fərqlidi, təzadlıdı,
Fitnəlidi, fəsadlıdı,
Birinə düz, rahat yoldu,
Birinə yoxuşdu dünya.

Tək, bir üzü olsa nə var,
Dilə tutub yaşayarsan.
Min bir üzü, əməli var,
Şeytanla sirdaşdı dünya.

Düzənsizdi çox işləri,
Quyruğa bağlayır nəri,
Ta Adəmdən üzübəri,
Bax, belə çaşbaşdı dünya!

***15. 06. 2021***

### *Peşman oldum*

Çalıb-çapdı həyat məni,
Gündən-günə viran oldum.
Zaman-zaman soydu məni,
Açıq-aşkar talan oldum.

Söküb-tökdü şux qəddimi,
Əydi polad dizlərinmi.
Sevincimə qatdı qəmi,
İçin-için bülyan oldum.

Qəlbimi yaxdı, dağladı,
Kefimə soğan doğradı.
Məni elə ovqatladı,
Payız kimi xəzan oldum.

Həsrət verdi həyat mənə,
Heç baxmadı minnətimə.
Bu dünyaya gəldiyimə,
Ürəyimdə peşman oldum.

***20.07.2021***

## Azərbaycan - Türkiyə

Yaranışdan qardaşdılar,
Qanbir, canbir, sirdaşdılar,
Əzəmətli bir dağdılar,
Azərbaycan - Türkiyə.

Nəcib, ulu soydandılar,
Təmiz qanlı Oğuzdular.
Bir inanca ortaqdılar,
Azərbaycan - Türkiyə.

Aya, günə sevdalıdı,
Bir-birinə vəfalıdı.
Nuhun əkiz övladıdı,
Azərbaycan - Türkiyə.

Sönməz qoşa mayakdılar,
Bir-birinə dayaqdılar.
Sanki polad qanaddılar,
Azərbaycan - Türkiyə.

Bir yerdədi xeyir-şəri,
Bir birinə var məhəbbəti,
Dillərdədi nəğmə kimi,
Azərbaycan - Türkiyə.

Bir-birinə edir hörmət,
Sarsılmazdı bu şan -şöhrət.
"Bir millətdi, iki dövlət",
Azərbaycan - Türkiyə.

***28.08.2020***

## Bu dünyada

Dərdin çəkisi ağırdı,
Hər adam dərd çəkə bilməz.
Dərdin həcmi çox böyükdü,
Hər ürəyə o sığışmaz.

Dərd var onu bir həb ilə,
Candan qovub çıxardırlar
Dərd var, yaman üzlü olur,
Top- tüfənglə candan çıxmır.
Dərd var, tək bir canda olur,
Özgə canda olmur, o dərd.
Dərd var, onu bir el çəkir,
Aman vermir o heç kimə.
Bir qəribə fikir məni,
Düşündürür çoxdan bəri
Görəsən heç bu dünyada,
Dərdsiz bir xalq, insan varmı!

***25.09.2020***

## Görün

Ey dünyanın fatehləri,
Gəlin, bu heyrəti görün.
Hər orduya örnək olan,
Ordumda qeyrəti görün.

Gəlin bizim Ordumuzun,
Həmləsinə diqqət edin.
Heç bir orduda olmayan,
Ondakı qüdrəti görün.

"Ya Qarabağ, ya da ölüm",
Vuruşdular bu amalla.
Şəhid olan eloğlunda,
Gəlin bu xilqəti görün.

Hələ belə qələbəni,
Özgə bir xalq qazanmayıb.
44 günə qalib olan,
Ordumda cürəti görün.

Ey dünyanın fatehləri,
Cəngavəri, sərkərdəsi,
Gəlin bizim Ordumuzun,
Çaldığı zəfəri görün!

***20.11.2020***

## Hamı oxuyur

Dünyada olan bəşərin,
Hamısı nəğmə oxuyur.
Hər kəsin öz nəğməsi var,
Hər gün, hər vaxt oxuyurlar.
Biri dağda,
biri bağda.
Biri göydə,
biri yerdə.
Körpə bələkdə,
Qoca eşikdə.

Biri evdə,
biri yolda.
Qar-yağışda,
sis-dumanda.
Dayanmadan aram ilə,
Biri pəsdən,
Biri zildən,
Ürəyində, dillərində,
Nəğmələrin oxuyurlar.
Bilmirəm nə oxuyurlar
Ancaq onu bilirəm ki,
Hər kəs bir nəğmə oxuyur
Biri dərddən,
Biri kefdən...
03.09.2021

## *Sən olmasan*

Sən olmasan mən bilməzdim,
sevgi nədi,
Sən olmasan nə bilərdim,
sevmək nədi.
Sən öyrətdin ürəyimi,
bu sevgiyə.
Sən caladın ürəyini
ürəyimə,
Sən bağladın ülviliyi
bu könlümə.

***

Sən olmasan mən bilməzdim,
Məhəbbətin qüdrətini.
Sən olmasan mən duymazdım,
Bu sevginin heyrətini.
Sən olmasan mən tapmazdım,
Bu həyatda xoşbəxtliyi,
Sən olmasan nə bilərdim,
Bu sevginin şirinliyin.
Sən olmasan bu həyatın,
Mən duymazdım gözəlliyin.

***

Nə yaxşı ki, sevdim səni,
bu dünyada.
Nə yaxşıki sevdin məni,
bu həıyatda.
Həyat şirin olmur, heç vaxt,
Sevgisiz, tək yaşayanda!

***08.07.2021***

## *Sevindi*

Şükür Haqqın bu gününə,
Ağlar gözümüz sevindi.
Həsrət, hicran, çıxdı candan,
Güldü, könlümüz sevindi.

Hasil oldu istəyimiz,
Muraza yetdi əhdimiz,
Coşdu, çağladı qanımız,
Qəmli qəlbimiz sevindi.

Alındı xalqın qisası,
Açıldı bağlı yolları.
Qurtardı yurd intizarı,
Köçkün elimiz sevindi.

Qalib çıxdıq bu savaşdan,
Düşmən qaçdı Qarabağdan.
Bu zəfərdən, bu uğurdan,
Bütün xalqımız sevindi!

***18.09.2020***

## *Yanardağ*

Səni görən çaşqın qalır,
Heyrət edir, heyran olur.
Dilim - dilim, buta - buta,
Alovlanıb yanmağına.

Yanardağ!
Abşeronun mayakısan!
Kimsə bilmir nə zamandan,
Gecə-gündüz nur saçırsan.

Sirrlə dolu bilməcəsən,
Əfsanəvi gözəlliksən,
Sən günəşdən qopub düşən,
İşıq saçan bir alovsan.

Bu alovlu görkünlə sən,
Bənzərsizsən, müqəddəssən,
Görən sənə heyran olur,
Hikmətlisən, sevimlisən.

Yanardağ!
Sən şahidsən, sən sübutsan,
Yurdumuzun keçmişinə.
Bu torpağın, bu ölkənin,
"Odlar yurdu" olmasına!

***28.05.2021***